# MM – MULTİKULTURALİZM MOZAİKASI

## İyul

*İyulun 3-də Gürcüstan Müsəlmanları İdarəsinin nümayəndə heyəti Bakı Beynəlxalq Multikulturalizm Mərkəzində (BBMM) olub.*

*Görüşdə BBMM-in icraçı direktoru Rəvan Həsənov iki ölkə arasında mövcud olan dostluq münasibətlərindən danışıb. O, qonaqlara ölkəmizdəki etnik və mədəni müxtəliflik, birgəyaşayış ənənəsi, multikultural və tolerant mühit barədə məlumat verib. İcraçı direktor Azərbaycanda dini və milli mənsubiyyətindən asılı olmayaraq hər kəsin bərabər hüquqlara malik olduğunu və sülh şəraitində dinc yanaşı yaşadığını, insanların öz etiqadlarını, adət-ənənələrini sərbəst şəkildə həyata keçirdiklərini vurğulayıb. O, bu nadir tolerantlıq mühitinin Azərbaycan Prezidenti İlham Əliyevin müdrik və uzaqgörən rəhbərliyi ilə gündən-günə daha da gücləndiyini diqqətə çatdırıb.*



*Gürcüstan Müsəlmanları İdarəsinin nümayəndə heyəti BBMM-də*

*Rəvan Həsənov həmçinin qonaqlara BBMM-in fəaliyyəti haqqında məlumat verib.*

*Gürcüstan Müsəlmanları İdarəsinin Şərqi Gürcüstan üzrə müftisi Yasin Əliyev Gürcüstanda dövlət-din münasibətləri barədə məlumat verib. Digər sahələrdə olduğu kimi, dini sahədə də əməkdaşlığa hazır olduqlarını vurğulayan nümayəndə heyətinin üzvləri dinlərarası münasibətlər, tolerantlıq, multikulturalizm kimi mövzularda Azərbaycanın zəngin təcrübəsinin öyrənilməsinin önəmini vurğulayıblar.*



*Qeyd edək ki, Gürcüstan Müsəlmanları İdarəsinin şeyxi Ramin İgidov, idarənin Şərqi Gürcüstan üzrə müftisi Yasin Əliyev, Qərbi Gürcüstan üzrə müftisi Beglar Kamaşidze və katibi Oktay İsayev ölkəmizə Mənəvi Dəyərlərin Təbliği Fondunun dəvəti ilə səfər ediblər.*

* * *

*Bakı Beynəlxalq Multikulturalizm Mərkəzində ABŞ-ın Kaliforniya ştatında yerləşən Sinay məbədinin üzvlərindən ibarət nümayəndə heyəti ilə görüş keçirilib.*



*Sinay məbədinin üzvlərindən ibarət nümayəndə heyəti ilə BBMM-də görüş*

*BBMM-in icraçı direktoru Rəvan Həsənov qonaqları salamlayaraq ölkəmizdəki multikultural mühit barədə məlumat verib, tolerantlığın və multikulturalizmin Azərbaycanda çox möhkəm təməl sütunlarının, zəngin tarixi ənənələrinin olduğunu qeyd edib. Ölkəmizdə əsrlərdən bəri müxtəlif dinlərə mənsub insanların qarşılıqlı anlaşma, mehriban qonşuluq və əmin-amanlıq şəraitində yaşadıqlarını diqqətə çatdırıb. R.Həsənov bildirib ki, Azərbaycan dünyəvi dövlət olmasına baxmayaraq, dini konfessiyalar hər zaman dövlətin diqqət və qayğısı ilə əhatə olunub. Məscidlərlə yanaşı kilsələr və sinaqoqlar da dövlət tərəfindən təmir və bərpa edilir, yeniləri inşa olunur. Hər il dövlət başçısı tərəfindən dini konfessiyaların fəaliyyətinin dəstəklənməsi məqsədilə maddi vəsait ayrılır. Bütün bunlar bir daha göstərir ki, tolerantlıq və multikulturalizm ənənələri ölkəmizdə dövlət siyasətinin əsas istiqamətlərindən biridir, məhz bu ənənələrin daha geniş təbliği üçün Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən 2016-cı il ölkəmizdə "Multikulturalizm İli", 2017-ci il isə "İslam Həmrəyliyi İli" elan edilib və bu illər çərçivəsində BBMM müxtəlif dövlət qurumları, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Qafqaz Müsəlmanları İdarəsi ilə bir sıra birgə tədbirlər həyata keçirib. İcraçı direktor bu istiqamətdə Heydər Əliyev Fondunun həyata keçirdiyi çoxşaxəli və geniş proqramlardan söz açıb.*

Nümayəndə heyətinin üzvü Yomtovian Aysak Azərbaycan haqqında geniş məlumata malik olduğunu, multikultural və tolerant mühitin bütün ölkə ərazisində yüksək səviyyədə hökm sürdüyünü, müxtəlif mədəniyyət və dinlərin nümayəndələrinin, etnik azlıqların harmoniya, qarşılıqlı hörmət şəraitində yaşadıqlarını bildirib. Sinay sinaqoqu üzvlərinin bir neçə dəfə Azərbaycana səfər etdiklərini xatırladan Yomtovian Aysak onların Azərbaycandan çox yüksək təəssüratla geri döndüklərini bildirib, müxtəlifliyin geniş yayıldığı bir dünyada millətlərin və dinlərin birgə yaşamasını təşviq edən Azərbaycan modelinin öz unikallığı ilə seçildiyini vurğulayıb. O, Azərbaycanın tolerantlıq və multikulturalizmin təşviqi istiqamətində oynadığı nümunəvi rolu xüsusi vurğulayaraq, ölkəmizlə qurulmuş sıx dostluq əlaqələrinə önəm verdiklərini bildirib. Eyni zamanda, ölkəmizdə müxtəlif dinlərin və xalqların dinc birgəyaşayışının, eləcə də uzun əsrlərdən bəri Azərbaycanda mövcud olan yəhudi icmasına göstərilən diqqət və qayğının yüksək səviyyədə olmasının böyük rəğbətlə qarşılandığını vurğulayıb.

Görüşün sonunda qonaqlara BBMM-in hədiyyələri təqdim edilib.

## Avqust

Los-Ancelesdə fəaliyyət göstərən və İran yəhudilərinin ABŞ-da ən böyük sinaqoqu olan Nessah sinaqoqunda Azərbaycanın multikulturalizm və tolerantlıq ənənələrinə həsr olunmuş geniş tədbir keçirilib. Tədbirdə 800-dən çox yəhudi iştirak edib. Sinaqoqun dəvəti ilə Los-Anceles Konsulluq Korpusunun duayeni (sədri), Azərbaycanın Los-Ancelesdəki baş konsulu Nəsimi Ağayev çıxış edib.

Sinaqoqun baş ravvini Devid Şofet Azərbaycan kimi multikulturalizm və tolerantlıq dəyərlərinə yüksək önəm verən bir ölkə ilə yaxından tanış olmaqdan böyük şərəf hissi keçirdiyini vurğulayıb. O, dünyada baş verən dinlərarası münaqişələr və müxtəlif ölkələrdə getdikcə artmaqda olan antisemitizm və irqçilik fonunda Azərbaycanda bütün xalqların, o cümlədən yəhudilərin azad və dinc şəraitdə birgə yaşamalarının, tam dini etiqad azadlığına malik olmalarının çox təqdirəlayiq hal olduğunu qeyd edərək, buna görə Azərbaycan xalqına və dövlətinə təşəkkürünü bildirib. Ravvin Şofet nə tarix boyu, nə də bu gün hər hansı antisemitizmin olmadığı Azərbaycanı bütün yəhudilərin dostu adlandırıb.

Baş konsul N.Ağayev çıxışında Azərbaycanın yerləşdiyi mürəkkəb coğrafi məkan, müstəqillik tarixi, sosial-iqtisadi inkişafı, uğurlu xarici siyasəti, multikulturalizm və tolerantlıq ənənələri, eləcə də Azərbaycan yəhudilərinin tarixi barədə ətraflı məlumat verib.



O, xalqımızın əsrlərdən bəri yüksək səviyyəli tolerantlıq mədəniyyəti yaradaraq inkişaf etdirdiyini bildirib. Multikulturalizmin bir dövlət siyasəti kimi bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə böyük uğurla həyata keçirildiyini söyləyən diplomat Azərbaycan multikulturalizminin bütün dünyaya gözəl bir örnək olduğunu vurğulayıb.

Bundan başqa, N.Ağayev Azərbaycanla İsrail arasında müxtəlif sahələrdə uğurlu tərəfdaşlıq əlaqələrinin qurulduğunu və bu əlaqələrin ilbəil daha da genişləndiyini bildirib.



Nessah sinaqoqunda Azərbaycanın multikulturalizm və tolerantlıq ənənələrinə həsr olunmuş geniş tədbir. Çıxış edir Azərbaycanın Los-Ancelesdəki baş konsulu Nəsimi Ağayev

Qeyd edək ki, Los-Anceles İran və İsraildən kənarda ən çox İran yəhudisinin yaşadığı şəhərdir. Burada 60 minədək İran yəhudisi yaşayır.

## Sentyabr

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzində Yaponiyanın Keito Universitetinin bir qrup tələbəsi ilə görüş keçirilib. Mərkəzin icraçı direktoru Rəvan Həsənov yapon tələbələrlə görüşdə Azərbaycanın multikulturalizm modeli haqqında ətraflı məlumat verərək burada harmoniya və sülh şəraitində yaşayan çoxsaylı milli azlıqların ölkənin siyasi, iqtisadi və mədəni həyatında rollarından bəhs edib. Görüşdə həmçinin ölkənin dini mühiti – burada yerləşən ibadətgahlar haqqında qonaqlara ətraflı məlumat verilib. Bundan əlavə, qeyd edilib ki, Azərbaycan öz multikulturalizm modelini artıq xaricə ixrac edir.

Yaponiyalı tələbələr BBMM tərəfindən onlara göstərilən diqqətə görə təşəkkür ediblər. Görüşün sonunda tələbələrə Mərkəz tərəfindən nəşr edilmiş

ingilis dilində "Azərbaycan multikulturalizmi" kitabı və xalqımızın mənəvi sərvəti olan "Kitabi-Dədə Qorqud" eposunun yapon dilində nəşr edilmiş nüsxələri təqdim olunub.



Yaponiyanın Keito Universitetinin tələbələri BBMM-in qonağı olub

* * *

BBMM-in Himayəçilər Şurasının sədri, Azərbaycan Dillər Universitetinin rektoru, Xalq yazıçısı, akademik Kamal Abdullayev Macarıstan və Azərbaycanın elmi-mədəni əlaqələrinin dərinləşməsindəki roluna görə Macarıstanın "Zabit Xaçı" ali xidmət ordeni ilə təltif olunub.

Sentyabrın 13-də ordenin təqdimatı ilə bağlı universitetdə tədbir keçirilib.

Rektor Kamal Abdullayev Macarıstanın Azərbaycandakı səfiri Viktor Sederkenyini universitetdə görməkdən məmnun olduğunu deyib, səfirin universitet heyəti və tələbələr tərəfindən hər zaman isti münasibətlə qarşılandığını qeyd edib. Rektor "Zabit Xaçı" ali ordeni ilə təltif olunmasının böyük şərəf olduğunu söyləyib və göstərdiyi diqqətə görə Macarıstan Prezidentinə təşəkkürünü bildirib:

"Bu ordeni bütün kollektivimizə aid edirəm. Bu, hamımızın birgə gördüyü işin nəticəsidir və ordenin təqdim olunmasında hər kəsin əməyi, zəhməti var. Macar dili, ədəbiyyatı, macarşünaslıq universitetimizin ən prioritet sahələrindən biridir. Dillər Universitetinin Macarıstan səfirliyi ilə çox maraqlı və perspektivli proqramları, layihələri var. Əminəm ki, hər iki ölkədə tələbələrimiz bir-biri ilə ünsiyyət quracaq, akademik heyətimiz bu proqramlardan istifadə edəcək. Bugünkü görüş qarşılıqlı olaraq yeni imkanlar açır".



Səfir Viktor Sederkenyi laureatı Macarıstan Prezidentinin sərəncamına əsasən "Zabit Xaçı" ali xidmət ordeni ilə təltif etməkdən şərəf duyduğunu söyləyib: "Akademik Kamal Abdullayev Azərbaycanın vətənpərvəri, müdrik insan, böyük alim və Macarıstanın dostudur. Macarıstanla Azərbaycan arasında olan əlaqə strateji və dostluq xarakteri daşıyır. Bu, xalqlarımızın mənafeyinə yönəlmiş əməkdaşlığın bütün sahələrini əhatə edir. Bizim siyasi münasibətlərimiz yüksək səviyyədədir, iqtisadi əməkdaşlığımız genişlənir, qarşılıqlı mədəni proqramlarımız rəngarəngdir. Yüzlərlə azərbaycanlı tələbə bu gün Macarıstanda təqaüd proqramları çərçivəsində təhsil alır.

Onu da qeyd etmək lazımdır ki, azərbaycanlı tələbələr məhz belə nüfuzlu universitetdə macar dilini öyrənməyə müvəffəq olurlar. Qarşılıqlı dəstək və anlaşmanın bu səviyyədə inkişaf etdirilməsi əlaqələri yaradan və qoruyub saxlayan insanların əməyi nəticəsində mümkün olub. Bu cür insanlar böyük diqqətə layiqdirlər. Akademik Kamal Abdullayev də həmin Azərbaycan vətəndaşları sırasına daxildir. Onun iki ölkə arasında əlaqələrin inkişafına töhfə verməsi Macarıstan hökuməti tərəfindən diqqətlə qarşılanır. Kamal Abdullayevin universitetə rəhbərlik etdiyi vaxtdan əlaqələrimiz daha da möhkəmlənib və genişlənib. O, yüksək səviyyəli əlaqələrimizin müxtəlif yollarla inkişafına töhfələr verib. Eyni zamanda, macar dilinin Azərbaycanda tədrisini dəstəkləməklə, Macar Dili Mərkəzinin Dillər Universitetində fəaliyyətə başlamasında, səfirliklə mərkəz arasındakı işgüzar əlaqələrin inkişafında, çoxsaylı birgə layihələrimizin həyata keçirilməsində böyük rol oynayıb".

Sonra səfir Macarıstan Prezidenti Yanoş Aderin Sərəncamına əsasən Macarıstanın "Zabit Xaçı" ali xidmət ordenini ADU-nun rektoru Kamal Abdullayevə təqdim edib.

* * *

Sentyabrın 14-də Azərbaycan Dillər Universitetində (ADU) "Multikulturalizmə giriş" dərsliyinin təqdimatı keçirilib.

Tədbiri giriş sözü ilə açan universitetin rektoru, Xalq yazıçısı, akademik Kamal Abdullayev ölkəmizdəki tolerant mühitdən, Azərbaycan multikulturalizmindən bəhs edib. O bildirib ki, Azərbaycanda istər millətlərarası və dinlərarası münasibətlər, istərsə də multikultural dəyərlər sahəsində əsrlər boyu təşəkkül tapmış ənənələr mövcuddur: "Multikultural əhvali-ruhiyyə və multikultural dəyərlərə qayğıkeş münasibət əsrlərdən bəri Azərbaycan xalqına xas olan keyfiyyətdir. Əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan multikulturalizm siyasəti Prezident İlham Əliyev tərəfindən daha da möhkəmləndirildi və hazırda uğurla davam etdirilir. Dövlətimizin başçısının müvafiq Sərəncamı ilə 2016-cı ilin Azərbaycanda "Multikulturalizm İli" elan edilməsi isə ölkəmizdə bu məsələyə olan xüsusi diqqətin təzahürüdür".

Akademik Kamal Abdullayev daha sonra bunları deyib: "Azərbaycana gələn xarici qonaqlar və turistlər ölkəmizdəki tolerant mühiti, dövlətimizin apardığı multikulturalizm siyasətini yüksək dəyərləndirirlər. Azərbaycan multikulturalizminin müasir dövrdə təntənəsini xarici vətəndaşlar heyranlıqla qarşılayırlar. Bu sahədə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin fəaliyyətini xüsusi qeyd etmək lazımdır. Mərkəz yarandığı gündən Prezident İlham Əliyevin qarşıya hədəf kimi qoyduğu Azərbaycan multikulturalizminin dünyada tanıdılması, beynəlxalq arenada təbliği və təşviqi ilə bağlı mühüm layihələr həyata keçirir. Mərkəzin önəmli layihələrindən biri də mütəmadi olaraq ildə iki dəfə təşkil edilən Beynəlxalq Multikulturalizm Yay və Qış məktəbləridir. Dəyərli ənənəyə çevrilmiş bu məktəblərin nəticəsi olaraq xaricdə Azərbaycanın gənc dostlarının və onların yaxın çevrəsinin timsalında ölkəmizin haqq işini dəstəkləyən intellektual gənclərdən ibarət ünsiyyət platforması – "Azərbaycanın Gənc Dostları Klubu" formalaşıb. Bunun nəticəsidir ki, Yay və Qış məktəblərinin iştirakçıları arasında səmimi münasibətlər qurulur, onlar mütəmadi olaraq ölkəmizin multikulturalizm modeli haqqında məlumatlandırılırlar. BBMM-in "Azərbaycan multikulturalizmi" fənninin yerli və xarici ölkə universitetlərində tədrisi layihəsi uğurla davam edir. Layihə çərçivəsində dünyanın 21 aparıcı universitetində "Azərbaycan multikulturalizmi" fənni magistratura pilləsində tədris olunur".



"Multikulturalizmə giriş" kitabının ADU-da təqdimatı. Çıxış edir universitetin rektoru, Xalq yazıçısı, akademik Kamal Abdullayev

Diqqətə çatdırılıb ki, Azərbaycan Respublikası Prezidentinin tövsiyəsi və Təhsil nazirinin müvafiq əmri ilə 2019-2020-ci tədris ilindən etibarən ölkəmizin bütün ali təhsil məktəblərinin bakalavr səviyyələrində "Multikulturalizmə giriş" əsas fənn kimi tədris ediləcək. Bu məqsədlə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi tərəfindən fənni tədris edəcək müəllimlərin bilik səviyyələrini artırmaq üçün sentyabrın 2-dən 13-dək hazırlıq treninqi təşkil olunub. Treninqdə yüzdən çox müəllim iştirak edib.



Azərbaycan Respublikasının Təhsil Nazirliyi, Mənəvi Dəyərlərin Təbliği Fondu və Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin birgə layihəsi olan "Multikulturalizmə giriş" dərsliyi nəşr edilib. Kitabın elmi redaktoru və "Ön söz"ün müəllifi Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri akademik Ramiz Mehdiyevdir. Dörd bölmədən ibarət kitabın 1-ci bölməsində "Multikulturalizmə giriş" fənninin predmetindən və əhəmiyyətindən bəhs edilib. Digər bölmələrdə isə dini, etnik müxtəliflik və multikulturalizm mövzularına geniş yer verilib.

Tədbirdə çıxış edən Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri professor Etibar Nəcəfov deyib: "Ölkələrin elm, təhsil, mədəniyyət, iqtisadi, siyasi, səhiyyə və digər sahələrdəki nailiyyətləri müvafiq göstəricilər vasitəsilə müəyyənləşdirilir. Bu göstəricilərlə ölkələrin müvafiq sahə üzrə yeri müəyyən olunur. Multikulturalizm sahəsində də müəyyən göstəricilər var. Multikulturalizm ölkənin inkişafının mühüm bir sahəsini əks etdirir ki, bu da ilk növbədə etnik-mədəni müxtəlifliklərin qorunmasıdır. Etnik-mədəni müxtəlifliklərin qorunmasının əhəmiyyəti ondan ibarətdir ki, bu, ilk növbədə cəmiyyətdə inteqrasiya proseslərinə səbəb olur və şərait yaradır. Multikulturalizm sahəsində ölkələrin inkişaf səviyyəsini müəyyən etmək digər sahələrlə müqayisədə bir qədər çətindir. Çünki bəzi istisnalar olunmaqla buna dair əsaslı şəkildə göstəricilər tətbiq edilməyib. 2015-ci ildən ölkəmizin ali təhsil müəssisələrində, BBMM xətti ilə isə xarici ölkələrin ali məktəblərində "Azərbaycan multikulturalizmi" fənninin tədris olunması dövlətimiz tərəfindən bu siyasətin mühüm təzahürüdür. Fənnin tədrisi təkcə idraki xarakter daşımır, bunun çox böyük siyasi, praktik əhəmiyyəti var. Bu istiqamətdə tədris tələbələri multikulturalizmlə bağlı məlumatlandırmaqla yanaşı, cəmiyyətdəki inteqrasiya proseslərinə də müsbət təsir göstərəcək. Bu baxımdan "Multikulturalizmə giriş" dərsliyinin nəşr olunması böyük əhəmiyyət daşıyır".

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı multikultural, tolerant dəyərlərimizin öyrənilməsində "Azərbaycan multikulturalizmi" fənninin tədris olunmasının vacibliyini qeyd edib, bu sahədə "Multikulturalizmə giriş" dərsliyinin mükəmməl hazırlandığını diqqətə çatdırıb. Azərbaycanın dövlət-din modelinin bu gün bütün dünya ölkələri üçün örnək olduğunu vurğulayan komitə sədri bildirib ki, hazırda müsəlman ölkələrində bu təcrübə geniş şəkildə öyrənilir: "Müasir dövrdə multikulturalizmin təbliği, təşviqi çox vacibdir. Ölkəmizdəki tolerant mühit, Azərbaycanın multikulturalizm modeli dünya ölkələrində çox müsbət qarşılanır və tədqiq olunur. Biz beynəlxalq tədbirlərdə bunun şahidi oluruq".

Təhsil Nazirliyinin Beynəlxalq əməkdaşlıq şöbəsinin müdiri Nicat Məmmədli, Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktoru Mehman İsmayılov, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru Rəvan Hə-

*sənov, Azərbaycan Texnologiya Universitetinin müəllimi Əyyub Kərimov və treninq iştirakçısı, ADU-nun müəllimi Jalə Əsədova çıxış edərək Azərbaycan multikulturalizmi modelinin öyrənilməsində, milli-mənəvi dəyərlərimizin təbliğində "Multikulturalizmə giriş" dərsliyinin və "Azərbaycan multikulturalizmi" fənninin əhəmiyyətindən söz açıblar.*

*Tədbir çərçivəsində ölkənin müxtəlif universitetlərindən treninqdə iştirak etmiş 100-dən çox müəllimə sertifikat verilib.*

* * *

*Bakıda "Qız qalası. Qadın olmaq" Beynəlxalq Müasir İncəsənət Festivalı keçirilib. Festivalda bir qrup rəssam, kurator, eləcə də Avropa ölkələri və Şərq Tərəfdaşlığı bölgəsindən olan incəsənət nümayəndələri iştirak ediblər. Festival çərçivəsində Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin təşkilatçılığı ilə Quba şəhərinə mədəni, multikultural tur-səfər həyata keçirilib. Səfər zamanı qonaqlar Qırmızı Qəsəbədə, Quba Xalçaçılıq Muzeyində və rayonun bir sıra görməli yerlərində olublar.*



*"Qız qalası. Qadın olmaq" Beynəlxalq Müasir İncəsənət Festivalının iştirakçıları Qubada*

*Quba şəhəri Azərbaycan multikulturalizminin və millətlərarası tolerantlığın gözəl bir nümunəsidir. Şəhərdəki Qırmızı Qəsəbəyə səfər bunu tədbir iştirakçıları üçün bir daha təsdiqləyib. Səfər zamanı Dağ Yəhudiləri icmasının rəhbəri Milix Yevdayev və BBMM-in icraçı direktoru Rəvan Həsənov qonaqları icma həyatının keçdiyi əsas yerlərlə tanış ediblər. Onlar dağ yəhudilərinin Azərbaycanda məskunlaşmasının tarixindən və yaşam tərzindən də söz açıblar.*



* * *

*Bakıda yəhudilərin Azərbaycandakı fəaliyyətinə həsr edilən "Tolerant Azərbaycan" konfransı keçirilib. Tədbirdə dini konfessiyalar və ictimaiyyət nümayəndələri iştirak edib.*

*Konfransda çıxış edən Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktoru Mehman İsmayılov bildirib ki, fond sadəcə müsəlman icmalarının deyil, ölkədə fəaliyyət göstərən qeyri-müsəlman dini icmalarının mənəvi dəyərlərinin tanıdılması istiqamətində fəaliyyət göstərir: "Ölkəmizdə yaşayan dini icmalar da Azərbaycan dövlətçiliyinin qorunmasında yaxından iştirak edirlər. Azərbaycan da bütün dini icmaları, onların mənəvi dəyərlərinin inkişafını dəstəkləyir".*



*"Tolerant Azərbaycan" konfransından görüntü*

*Dağ Yəhudiləri dini icmasının sədri Milix Yevdayev bildirib ki, yəhudilər Azərbaycanda həmişə sülh, tolerantlıq şəraitində yaşayıblar: "Burada yaşayan yəhudilər bütün dünyaya yayılsalar da, heç vaxt Azərbaycanla əlaqələri kəsməyiblər. Biz həmişə qardaş kimi yaşamışıq, bundan sonra da bu cür yaşayacağıq". İcma başçısı bildirib ki, sentyabrın 28-də Azərbaycanın Milli Qəhrəmanı, yəhudi əsilli Albert Aqarunovun xatirəsinə həsr olunmuş beynəlxalq karate yarışları keçiriləcək: "Albert Aqarunovun küçəsinin başlanğıcında ona heykəl qoyulub. Düşünürəm ki, o heykəlin adının daşıyıcısı Albert Aqarunov olsa da, bu, bütün şəhidlərimizə və qəhrəmanlarımıza həsr olunub. Biz Azərbaycanın xoş gününə daima sevinib, pis günlərində birgə olmuşuq".*

*Tədbirdə dağ yəhudilərinin fəaliyyətinə həsr olunmuş film nümayiş etdirilib.*

*Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılov qeyd edib ki, Azərbaycan dövlətinin uğurlarında xalqımızın tərkib hissəsi olan yəhudilərin də böyük xidmətləri var: "Biz yəhudilərlə bu torpağın tək-*

*cə havasını, suyunu yox, həm də taleyini paylaşmışıq. Bu, minillərdir davam edir, əbədiyyətə qədər belə olacağına inanıram".*

*Qafqaz Müsəlmanları İdarəsinin sədr müavini Fuad Nurullayev Azərbaycanda yaşayan bütün xalqların ölkənin gücü və sərvəti olduğunu vurğulayıb.*

*Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru Rəvan Həsənov bildirib ki, yəhudilərin Cənubi Qafqaza gəlməsi təxminən 2300 il əvvələ aid edilir: "Yəhudilərlə azərbaycanlılar daima xoş və pis günlərdə bir yerdə olublar. Tarixin müxtəlif mərhələlərində yəhudilər Azərbaycan dövlətində də, cəmiyyətində də təmsil olunublar. Azərbaycan yəhudi məktəbinin, mədəniyyət mərkəzinin açılması, dini ibadətgahların, sinaqoqların təmir olunması, yenilərinin tikilməsi və dinin təbliğinin sərbəst olması Azərbaycan dövlətinin həyata keçirdiyi siyasətin əsas təməllərindən biridir".*

* * *

*Sentyabrın 28-29-da Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Drezden filialının təşkilatçılığı ilə Pirna və Drezden universitetlərində silsilə tədbirlər keçirilib.*



*Drezden Universitetindəki tədbirdən görüntü.*
*Çıxış edir professor Eva-Maria Aux*

*Pirna Universitetinin dəvəti ilə gerçəkləşən görüşdə BBMM-in Drezden filialının rəhbəri Birgit Vaysgerber "Cənubi Qafqazda almanların məskunlaşması" mövzusunda mühazirə oxuyub. Bir saatlıq mühazirə zamanı B.Vaysgerber cari ilin may ayında Azərbaycana olan səfərinin detalları, eləcə də Gəncə və Göygöl şəhərlərində apardığı araşdırmaların nəticələri haqda da məlumat verib. Çıxışında o, almanların Azərbaycanda məskunlaşmasının ölkənin iqtisadi, sosial və mədəni inkişafındakı rolu ilə yanaşı, multikultural ənənələrinə təsiri mövzusuna da toxunub. Tədbir iştirakçıları Azərbaycanda bugünkü multikultural və tolerant mühit, eləcə də müxtəlif dini qurumlara dövlət dəstəyi ilə bağlı məqamlarla maraqlanıblar.*

*XXIX Mədəniyyətlərarası Günlər çərçivəsində Drezden Universitetində keçirilən tədbir isə "Naməlum Azərbaycan – Odlar Yurdu" adlanıb. Tədbirdən öncə almanların Qafqazda məskunlaşması mövzusunda sərginin açılışı olub. Sərgidən sonra Berlin Humboldt Universitetinin Azərbaycan tarixi kafedrasının müdiri professor Eva-Maria Aux Azərbaycanın multikultural keçmişi və bugünündən bəhs edən mühazirə söyləyib. İki saatlıq mühazirəsində professor Aux diqqəti keçmişdə və müasir dövrdəki miqrasiya prosesləri arasında paralellərə yönəldib. Daha sonra o, Azərbaycanda alman yaşayış məntəqələrinin son iki əsrdəki inkişafı mövzusuna toxunub. Tədbir iştirakçıları Azərbaycan və Almaniya tarixinin az bilinən məqamları haqda çıxışı maraqla dinləyiblər.*